# Poeziya Xəzrisi

# Nəbi Xəzri



*Veblioqrafiya*

**Bakı - 2024**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024.**

**Tərtib etdi: Məlumat-biblioqrafiya şöbəsi**

**Əliyeva Lamiyə**

**Ünvan**: Bakı şəhəri, S.Vurğun küçəsi 88

**Əlaqə:** (+99412) 597-08-79, (+99412) 597-09-86

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

# GİRİŞ

Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Nəbi Xəzri yaradıcılığında vətən sevgisi, insanın daxili aləmi və təbiətlə qarşılıqlı əlaqəsi mövzularında dərin fəlsəfi lirika yaradan Xalq şairidir.

Nəbi Xəzri 1924-cü il dekabrın 10-da Bakı yaxınlığındakı Xırdalan kəndində tacir ailəsində anadan olmuşdur. İkinci Dünya müharibəsi dövründə arxa cəbhədə çalışmış, daha sonra "Kommunist" qəzetində korrektor və Azərbaycan radiosunda diktor olmuşdur. 20 yaşında Səməd Vurğunun tövsiyəsi ilə Yazıçılar İttifaqına üzv olmuşdur. İlk şeir kitabı *"Çiçəklənən arzular"* 1950-ci ildə çap olunmuşdur. O, Azərbaycan Dövlət Universiteti, Leninqrad Dövlət Universiteti və Maksim Qorki adına Ədəbiyyat İnstitutunda ali təhsil almışdır.

Nəbi Xəzri müxtəlif yüksək vəzifələrdə, o cümlədən Azərbaycan Yazıçılar İttifaqının katibi, Mədəniyyət Nazirinin müavini və Azərbaycan Dövlət Televiziya və Radio Komitəsi sədrinin müavini kimi çalışmışdır. O, poeziyasında fəlsəfi məzmunu, milli koloriti və dərin lirizmi ilə seçilmişdir. Əsərləri insanın mənəvi aləmini və təbiəti incəliklə əks etdirir. Onun şeirlərindən bəstəkarlar ilham almış və əsərləri Azərbaycan musiqisinin incilərinə çevrilmişdir.

Şairin şeirləri və poemaları bir çox dillərə tərcümə edilmiş, bədii tərcümələri isə dünya poeziyasını Azərbaycan oxucusuna yaxınlaşdırmışdır. Dram əsərləri teatr səhnələrində uğurla tamaşaya qoyulmuşdur. İctimai xadim kimi Nəbi Xəzri milli mədəniyyətin təbliği istiqamətində çalışmışdır.

*"İllər və sahillər"*, *"Ulduz karvanı"*, *"Nəsillər-əsrlər"*, *"Torpaq sənə and içirəm"* kimi əsərləri onun zəngin yaradıcılığını əks etdirir.

Şair 2007-ci ildə vəfat etmiş və 1-ci Fəxri Xiyabanda dəfn olunmuşdur.

## Görkəmli şəxsiyyətlər Nəbi Xəzri haqqında

Nəbi Xəzrinin öz poetik aləmi, məcazlar, bənzətmələr, bədii ifadələr aləmi vardır. Bu aləmi o özü yaratmışdır və ona sadiqdir. Bu poetik aləm çox zəngin mənəvi aləmin ideyalar, fikirlər, hisslər aləminin gözəl bir inikas formasıdır. Şairin mənəvi dünyasını mən dörd kəlmə ilə ifadə edərdim: ucalıq, genişlik, təmizlik, gözəllik. Nəbi şeirimizə dağların vüqarını, zirvələrin ucalığını, ümmanların, dənizlərin genişliyini, baharın, yağış-qarın, çiçəklərin təmizliyini, insan qəlbinin, sevginin, insana inamın gözəlliyini gətirmişdir.

**Məmməd Arif**

ədəbiyyatşünas, professor

Nəbi Xəzri yaşayıb duyduqlarını sənətkarlıqla, hərarətlə, məhəbbətlə, məharətlə qələmə aldığındandır ki, şeirləri geniş oxucu kütlələri arasında sevilmiş, dərin rəğbət qazana bilmişdir. Nəbinin əsərlərinin qəhrəmanı yeni insandır. Şairin şeirlərinin mahnılara çevrilməsi onun sevimli qəhrəmanları ilə, nəcib hisslərlə bağlıdır və böyük səadətdir. Mən Nəbi Xəzrinin şeirlərini küll halında mahnılar adlandırsam, fikrimdə yanılmaram. Bunlar vətən, xalq, canlı təbiət lövhələri, məhəbbət, sədaqət, dostluq, qardaşlıq haqqında mahnılardır.

**Süleyman Rüstəm**

Xalq şairi

Nəbi Xəzrinin özünəməxsus səsi, həyata və insana öz münasibəti var. Onun haqqında danışanda yadıma Azərbaycanın uca çinarları düşür – onların qüdrətli kökləri torpağın şirəsini içir. Nəbi Xəzri poeziyası da beləcə xalq poeziyasının həyatverici şirəsi ilə qidalanır, bu mənbədən qüvvət və qüdrət alır.

**Rəsul Həmzətov**

avar şairi, yazıçısı, publisist

Nəbi Xəzrinin məhəbbət mövzusunda yazdığı zərif, həyəcanlı, gün işığı kimi şəffaf şeirləri bu əbədi mövzunun ümumittifaq poeziyasında ən yaxşı nümunələrdəndir. Onları ilk dəfə ürək döyüntüsü ilə oxumuşam. Nəbi Xəzri qələmində söz xırdalanmır, ona görə ki, ciddi və dərin fikirləri, hissləri ifadə edir. Bu gün Azərbaycanın Xalq şairi adını daşıyan qələm dostumun sətirlərində xalqın qədim poeziya ənənələri duyulur. Məhz bu ənənələrə söykəndiyi üçün müasirliyin zirvələrini fəth edə bilir.

**Boris Oleynik**

ukraynalı şair

Nəbi Xəzri poeziyasında lirika və epiklik qəribə bir vəhdət təşkil edir. Onun zərif, romantik ruhlu, həyəcanlı məhəbbət lirikasını oxuyandan, dünyadan sonra Sevil Qaziyeva, Tərlan Musayeva kimi əmək qəhrəmanları, Sumqayıt zəhmətkeşlərinin quruculuq işləri barədə yazdığı poemaları mütaliə edəndə elə bil başqa bir şairi oxuyursan. Məncə, bu, istedadın gücüdür, çoxcəhətliliyidir. Həqiqi istedadda lirik və epik keyfiyyət ayrılmaz olur.

**Yeqor İsayev**

rus sovet şairi

Nəbinin şeirlərini həyat və insan haqqında düşüncələr adlandırmaq olar. Bu düşüncələrin mərkəzində şair "mən"i dayanır, heç kəsə bənzəməyən, ancaq özünə oxşayan, özünü vətən və xalq məhəbbəti, beynəlmiləlçilik humanizm, əzilən
xalqların azadlıq mübarizələrinə, əmək qəhrəmanlarına rəğbət, ana, ailə, dost, övlad qayğısı kimi əhatəli bir qələmə aldığı mövzularda özüdür. Bu, şair ilhamının gücüdür, qüdrətidir, bənzərsizliyidir.

**Kamal Talıbzadə**

tənqidçi, ədəbiyyatşünas

**Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2024-cü ilin dekabr ayında Azərbaycanın Xalq şairi, ictimai xadim, Dövlət mükafatları laureatı Nəbi Xəzrinin (Nəbi Ələkbər oğlu Babayevin) anadan olmasının 100 ili tamam olur.

Nəbi Xəzri Azərbaycan ədəbiyyatını yeni poetik obrazlarla zənginləşdirərək onun inkişafında özünəməxsus rol oynamış görkəmli söz ustasıdır. Çoxcəhətli yaradıcılığı boyu sənətkar insanın mənəvi aləminin saflığını geniş lirik-epik lövhələrlə tərənnüm etmiş və daim ülvi ideallarla yaşamağa çağırmışdır. Azərbaycan xalqının tarixi-mədəni yaddaşının bir çox səhifələri onun yüksək vətəndaşlıq qayəsindən yoğrulan əsərlərində öz bədii təcəssümünü tapmışdır. Təbiət gözəlliklərinə vurğunluq və doğma torpağa bağlılıq hissləri aşılayan Nəbi Xəzri poeziyası dərin lirizmi, ifadə tərzi və həyata fəlsəfi münasibəti ilə səciyyələnir. Nəbi Xəzrinin dram əsərləri Azərbaycan teatrlarında uğurla tamaşaya qoyulmuş və müəllifinə şöhrət qazandırmışdır. Nəbi Xəzri eyni zamanda ictimai xadim kimi səmərəli fəaliyyət göstərmiş, Azərbaycan mədəniyyəti və incəsənətinin xarici ölkələrdə təbliği istiqamətində təqdirəlayiq işlər görmüşdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının inkişafına töhfələr vermiş Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Nəbi Xəzrinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 9 sentyabr 2024-cü

**Kitabları**




Seçilmiş əsərləri : 2 cilddə. C. 1 : Şeirlər. - Bakı : Lider nəşriyyatı, 2004. - 248 s.
Seçilmiş əsərləri : 2 cilddə. C. 2 : Şeirlər və poemalar. - Bakı : Lider nəşriyyatı, 2004. - 264 s.

Çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, xalq şairi Nəbi Xəzrinin seçilmiş əsərlərindən ibarət olan bu cilddə şairin ayrı-ayrı vaxtlarda qələmə aldığı şeir və poemaları daxli edilmişdir. Kitabın hər iki cildində yer alan bu ədəbi nümunələr tanınmış şairin yaradıcılığı haqqında dolğun təsəvvür yaradır.

**Kiril əlifbası ilə**




Arzu. - Bakı : Gənclik, 1967. - 12 s.
Kitab uşaqlar üçün çox maraqlı şeirlər toplusundan ibarətdir.




O uzaq gecə : povest. - Bakı : Yazıçı, 1990. - 176 s.
Kitab 1937-ci ilin amansız faciələrinə ithaf edilmişdir. Bu əsər o illərin qəddar repressiya dalğasının sadə insanların taleyinə vurduğu zərbələrdən bəhs edir. Əsərdə minlərlə insanın həyatına təsir edən qanlı hadisələrin fonunda insanların çətinliklər qarşısında nümayiş etdirdiyi mərdlik, satqınların alçaq əməlləri parlaq şəkildə canlanır.




Peyğəmbər : saflıq hekayələri. - Bakı : Azərbaycan. - 1992. - S. 48.

Kitabda insanın daxili saflığı, mənəvi bütövlüyü və yüksək əxlaqi keyfiyyətləri poetik dillə təsvir edilmişdir. Şair insanın ruhani inkişafını və mənəvi dəyərlərə bağlılığını hekayəvi üslubda işıqlandıraraq, oxucunu həyatın mənası və insanlığın əsl dəyəri üzərində düşünməyə çağırır.




Salatın : poema. - Bakı : Gənclik. -1991. - 24 s.

Kitab 1991-ci ildə erməni terrorçuları tərəfindən qətlə yetirilən Azərbaycanın Milli Qəhrəmanı Salatın Əsgərovanın qəhrəmanlıq dolu ömür yoluna həsr olunub. Əsər yalnız onun həyatı və fədakarlığını əks etdirmir, həm də vətənpərvərlik, insanın daxili gücü və qüruru kimi mövzuları ustalıqla əhatə edir.




Səma uzaq, torpaq dərin. – Bakı : Gənclik. – 1996. – 267.

Kitabda Nəbi Xəzrinin silsilə hekayələri, povestləri və pyesləri yer almışdır. Kitabı oxuyan hər bir oxucu dahi şairin bədii sənətinin nə qədər geniş və əhatəli olduğunu görmüş olacaq.




Son illərin sətirləri : şeirlər və poema . - Bakı : Gənclik, 1975. - 93 s.

Kitabda Nəbi Xəzrinin son illərdə yaratdığı dəyərli poeziya nümunələri yer almışdır. Görkəmli şairin şeirlərinin bir qismi Azərbaycan gənclərinin əməyini, məhəbbətini, ölkəmizin qüdrətini, beynəlxalq nüfuzunu əhatə edir.

**Əsərləri dövri mətbuatda**

Altıağacda ; Müşfiq evi ; Görüm və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2001. - 2 fevral. - № 5. - S. 3.
Bəsdir, dərdlər gördük, ey Tanrı yetər : şeirlər // Ədəbiyyat qəzeti. - 1997. - 18 iyun. - № 28. - S. 4.
Bu gün zaman tərəzisi əyilmişdir // Azərbaycan. - 1994. - 11 fevral.
Dəniz, göy, məhəbbət // Yeni Azərbaycan. - 2010. - 6 mart. - N 42. - S. 10.
Dəniz, göy, məhəbbət ; İki səs ; İkilikdə : şeirlər // Ədəbiyyat qəzeti. - 2011. - 9 dekabr. - S. 4.
Dilə ibadət ; Nəvələrimə : şeirlər // Ədəbiyyat qəzeti. - 2010. - 4 iyun. - N 22. - S. 3.
Dünyanın nə günahı? ; Dəyişər ; Ağıllı qız // Ədəbiyyat qəzeti. - 2002. - 17 may.
Hardasan Azıx mağarası ; And içilərsə ; Ürək dönəndə // Ədəbiyyat. - 2000. - 11 fevral.
İntizar ; O səs hanı ; Görüş və ulduz // Ədəbiyyat qəzeti. - 2003. - 31 yanvar.
Qəm dəftəri kitabından eynək ; Gecə toru ; Tək və tənha və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 1991. - 23 fevral. - № 8. - S. 6.
Pay gətirmişəm ; Mən nəyəm ; Öz vətənimdə : şeirlər // Azərbaycan gəncləri. - 1989. - 29 mart. - S. 4.
Reyhan ətirli dünya ; Sənə ; Kaş bilsin və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 1998. - 24 iyun. - № 29. - S. 3.
Reyhanlı dünyama nə deyim indi? ; Bir gözələ xəyali məktub ; Səs və b. : şeirlər // Ədəbiyyat qəzeti. - 2001. - 20 noyabr.
Şəxs və şəxsiyyət ; Elə yazıram ki ; Küsəyən // Ədəbiyyat qəzeti. - 1999. - 18 iyun.
Vida : şeir // Ədəbiyyat qəzeti. - 2020. - 25 yanvar. - № 3. - S. 16.

**Haqqında dövri mətbuatda**

**Abbaslı T**. "Ömrü şeirlə ərimiş"... : ürəklərə gilavar-gilavar varıb, duyğuları xəzri-xəzri oyatmış Nəbi Xəzri // Mədəniyyət. - 2015. - 9 dekabr. - № 96. - S. 13.
**Abbaslı T**. İşıq, ziya Nəbisi, poeziya Xəzrisi // Mədəniyyət. - 2011. - 9. 12. - № 91. - S. 11.
**Abbaslı T.** Ömrü şeirlə ərimiş // Mədəniyyət. - 2015. - 9 dekabr. - № 96. - S. 13.
**Abbaslı T**. Vətən aşiqi... : şair Nəbi Xəzri haqqında // Mədəniyyət. - 2013. - 11 dekabr. - № 89. - S. 12.
**Abbaszadə H.** Vətən sevgisi, vətən dərdi // Ədəbiyyat və incəsənət. - 1985. - 15 noyabr. - № 46. - S. 6.
**Abdullazadə A.** Sahilsiz ömür // Kommunist. - 1984. - 12 dekabr.
Azərbaycan ətirli poeziya // Ədəbiyyat qəzeti. - 2004. - 17 dekabr. - S. 2.
**AzərTac.** Son mənzilə // Xalq qəzeti. - 2007. - 17 yanvar.
**Bayram T.** İlhamlı nəğmə // Ədəbiyyat və incəsənət. - 1985. - 20 oktyabr.
**Bayramqızı Ə**. Dənizi hədiyyə verirəm sənə... : Nəbi Xəzri - 90 // Palitra. - 2014. - 16 yanvar. - № 7. - S. 15.
**Bədəlov A.** İki poemanın tədrisi haqqında // Azərbaycan məktəbi. - 1974. - № 4 . S. 77-84.
**Budaqov B.** Nəbi Xəzri kahkəşanı // Ədəbiyyat qəzeti. - 2004. - 17 dekabr. - S. 2.
**Cümşüdov C.** Gənclərin sevimlisi // Azərbaycan gəncləri. - 1988. - 11 fevral. - S. 4.
**Dilbazi M.** Vətəndaşlıq poeziyası // Ədəbiyyat və incəsənət. - 1984. - № 10. - S. 6, 8.
**Əfqan Ə.** Sərhədlərin o tayında // Kommunist. - 1987. - 1 oktyabr.
**Əhmədalılar T**. Sən yazırdın ki: : "Şeir mənim balam, mənim bəlamdır, Sənət - basılmayan məğrur qələmdır"...// Mədəniyyət. - 2014. - 17 dekabr. - № 97. - S. 10.
**Ələddinqızı N**. Nəbi Xəzrinin söz dünyası // Səs. - 2024. - 11 sentyabr. - № 165. - S. 9.
**Əzizov R.** Lenin mükafatına təqdim olunmuş əsərlər : İnam // Azərbaycan müəlimi - 1984. - 23 mart. - S. 4.
**Fərəcov S**. Xoş taleli, dağ dözümlü şair // Mədəniyyət. - 2012. - 14 mart. - № 17. - S. 15.
**Fərəcov S.** Nəbi Xəzri duyğularının bənzərsizliyi // Mədəniyyət. - 2010. - 10 dekabr.

**Hacıyev N.** Şairin söz baharı // Azərbaycan. - 1969. - № 4. - S. 178-181.
**Hacıyeva N.** Arzulardan ürəklərə // Xalq qəzeti. – 1994. – 17 iyun. - № 43.
**Hacıyeva N.** Lirik duyğular şairi // Ədəbiyyat qəzeti. - 1999. - 10 dekabr. - № 48. - S. 3.
**Həmzətov R.** Ürəklərdən keçən yol // Kommunist. - 1984. - 13 mart.
**Xəlilzadə F.** Gözlərim görməsə Göy gölü verin // Azərbaycan. - 2004. - 18 dekabr. - S. 8.
**Xəlilzadə F**. Qarlı zirvələr : Xalq şairi Nəbi Xəzri haqqında // Mədəniyyət. - 2011. - 24 iyun. - № 46. - S. 13.
**Xəlilzadə F.** Sənətdə zirvə silsilə daşdı // Azərbaycan. - 1994. - 21 iyun.
**İbrahimov M.** Zamanla birgə // Kommunist. - 1988. - 20 fevral.
**Qaliboğlu E.** Şair olmaq istədiyimi eşidib məni təhqir etdilər // Etimad. - 2004. - 10-16 iyul. - № 24. - S. 11.
**Qarakişiyev Q.** Arzu edirik ki… // Azərbaycan gəncləri. - 1988. - 11 fevral. - S. 4.
**Qoca X.** Bizə yaşamağı öyrədin // Yeni Azərbaycan. – 2007. – 17 noyabr.
**Qurbanqızı Z**. Düşündürən poeziya // Respublika. - 2022. - 10 dekabr. - № 270. - S. 8.
**Man Q.** Dostum Nəbi Xəzriyə // Ədəbiyyat qəzeti. - 2001. - 8 iyun.
**Man Q.** Əziz dostum Nəbi Xəzri // Ədəbiyyat qəzeti. - 2001. - 8 iyun.
Nəbi Xəzri (1924-2007) : görkəmli şəxsiyyətlər // Savalan. - 2018. - 18-24 dekabr. - № 56. - S. 2.
Nəbi Xəzri // Azərbaycan. - 2007. - 16 yanvar.
Nəbi Xəzri : nekroloq // Xalq qəzeti. - 2007. – 16 yanvar.
Nəbi Xəzrinin 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (9 sentyabr 2024-cü il // Respublika. - 2024. - 10 sentyabr. - № 196. - S. 1.
Nəbi Xəzrinin 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Azərbaycan. - 2014. - 26 iyun. - S. 2.
**Nəbiyev B.** Həqiqətə çevrilmiş inam haqqında poema // Kitablar aləmində. - 1982. - № 3. - S. 31-34.
**Nizamiqızı H.** Şairin müqəddəs arzusu : Nəbi Xəzri - 90 // Mədəniyyət. - 2014. - 12 dekabr. - № 96. - S. 4.
**Nuriyeva T.** Ömür karvanının illəri // Xalq qəzeti. - 2002. - 27 yanvar. - S. 4.
**Rüstəmli R.** Şeir mənim üçün bir kainatdır // Respublika. - 2023. - 10 dekabr. - № 270. - S. 7.
**Salmanov Ş.** Hünərli illərin vəsfi // Azərbaycan gəncləri. - 1981. - 30 aprel.
**Səfərov Ş.** Mənəvi zənginlik poeziyası // Kommunist. - 1984. - 15 avqust. - S. 3.

**Səfərov Ş.** Sənətkarın mənəvi dünyası // Ədəbiyyat və incəsənət. - 1988. - 19 fevral.
Sənətkarın sahilsiz istedadı // Ədəbiyyat və incəsənəti. - 1985. - 5 iyun.
**Sərxanlı S.** Qaranquş nəğməsi // Azərbaycan gəncləri. - 1968. - 2 noyabr.
**Şıxlı İ.** Uşaqlıq dünyasının vahiməsi // Azərbaycan gəncləri. - 1988. - 25 avqust. - S. 4.
**Uğur T.** Ömür çəhlimi // Ədəbiyyat qəzeti. - 2024. - 21 sentyabr. - № 36. - S. 3.
**Ülvi A.** Çiçək-çiçək sətirlərdə söz ətri // Xalq qəzeti. - S. 6.
**Yusifli V.** Xoşbəxt taleli sənətkar - Nəbi Xəzri // 525-ci qəzet. - 2020. - 8 yanvar. - № 1. - S. 20.
Yüksək pafoslu poeziya // Kommunist. - 1984. - 20 mart.
Zirvələrdən zirvəyə // Azərbaycan müəllimi. - 1984. - 14 dekabr.